## ARXEOLOGİYA VƏ ETNOQRAFİYA

https://doi.org/10.59849/3006-1342.2025.1.101
UOT 94(479.24).

*Samirə Əliağa qızı Qasımova*
*AMEA Gəncə Bölməsi*
*ADAU, İctimai fənlər kafedrası*
*Tarix üzrə fəlsəfə doktoru, dosent*
*Gəncə ş., H.Əliyev pr. 419*
*E-mail: samira.qasimova82@mail.ru*
*Orcid: 0000-0002-8736-3909*

# GƏNCƏ - QAZAX XALÇAÇILIQ MƏKTƏBİNƏ MƏXSUS NAXIŞLAR ETNOQRAFİK MƏNBƏ KİMİ

*Azərbaycan xalqının milli-mənəvi dəyərləri sırasında xalçaçılıq sənətinin özünəməxsus yeri vardır. Bu dekorativ sənət növü tarixin ən çətin sınaqlarından keçməklə xalqımızın arzu və amalı ilə birgə yaşamış və dövrümüzə qədər gəlib çıxmışdır. Minilliklər boyu insanların xalça və xalça məmulatları üzərində əks etdirdiyi hər bir naxış Azərbaycan xalqının etnogenezini, dini inanclarını, təsərrüfat və ailə məişətini, adət-ənənələrini, başqa türkdilli xalqlarla etnik-mədəni, eləcə də iqtisadi əlaqələrini öyrənilməsi baxımından tarixi-etnoqrafik mənbə kimi mühüm əhəmiyyət kəsb edir. Bu istiqamətdə görkəmli xalçaşünas alimlərimiz tədqiqatlar aparmış, hansısa tarixi hadisənin, adət-ənənənin, inancın izi olan naxışları öyrənməyə çalışmış, onların mahiyyəti və sirrlərinin açılması işinə mühüm töhfələr vermişlər. Təqdim olunan məqalədə də Azərbaycanın yeddi əsas xalçaçılıq məktəbindən biri olan Gəncə-Qazax qrupuna məxsus xalçalar üzərinə toxunan naxışların etnoqrafik mənbə kimi əhəmiyyətindən bəhs olunur.*

*Açar sözlər:* Gəncə-Qazax xalçaçılıq məktəbi, xalça və xalça məmulatları, naxış sənəti, naxışlar etnoqrafik mənbə kimi, maddi və mənəvi mədəniyyət

### *Giriş*

Azərbaycanda tarixən formalaşmış peşələr içində milli dəyərimiz, milli sərvətimiz olan toxuculuq həmişə xüsusi yer tutmuş və toxuculuq məmulatları xalqımızın maddi və mənəvi mədəniyyətinin ayrılmaz tərkib hissəsi olmuşdur. Ölkə ərazisində, xüsusilə də islam dininin yayılmasına qədər müxtəlif inanclar mövcud olmuş və insanlar bu inancları ehtiva edən ayrı-ayrı naxışları, təsvir elementlərini toxuculuq nümunələri, xalça və xalça məmulatları üzərinə həkk etmişlər. Xalça üzərinə toxunan hər hansı naxışda insanlar müəyyən bir ideya, dünyagörüşü, təxəyyülü ifadə etmiş və bütün bunları özləri də bilmədən yaşadaraq gələcək nəsillərə ötürmüşlər. Ən vacib məqamlardan biri də odur ki, xalça və xalça məmulatları üzərinə toxunan naxışlar Azərbaycan xalqının etnogenezini, dini inanclarını, təsərrüfat və ailə məişətini, adət-ənənələrini, başqa türkdilli xalqlarla etnik-mədəni, iqtisadi əlaqələrini öyrənmək baxımından tarixi-etnoqrafik mənbə kimi mühüm əhəmiyyətə malikdir. Sənətşünas alim Kübra Əliyeva haqlı olaraq yazır ki, hər bir xalqın naxış sənəti müəyyən etnik xüsusiyyətlərə sahibdir və digər xalqların naxış sənəti ilə ümumi cəhətlərə malikdir: "Xalqın mədəniyyətinin əhəmiyyətli tərkib elementlərindən biri olan və onun tarixi ilə sıx bağlı olan naxışlar etnik mədəniyyət tarixinin öyrənilməsində də mühüm mənbə rolunu oynayır. Naxış

sənəti xalqın məişəti, ictimai şəraiti ilə sıx bağlı olmaqla yanaşı, onun fəlsəfi - dini və magik dünyagörüşünü də əks etdirir" [13].

*Əsas hissə.* Azərbaycanda xalçaçılıq sənətinin tarixən inkişaf etmiş bölgələrindən biri də Gəncə-Qazax ərazisidir və burada toxunmuş xalça və xalça məmulatları da yuxarıda dediklərimizə nümunədir. Belə ki, sözü gedən bölgədə yaşayan insanlar əsrlər boyu düşüncə və hisslərini naxışlar vasitəsilə xalçalara köçürərək gözəl sənət nümunələri yarada bilmişlər. Gəncə-Qazax ərazisində toxunmuş xalça və xalça məmulatlarında Azərbaycanın bir çox bölgələrində dekorativ tətbiqi sənətdə istifadə olunan naxışların bir neçəsinə rast gəlmək mümkündür. Bu naxışlardan biri butadır və qeyd edək ki, ara sahəsi diaqonal xətlər əmələ gətirən və bu xətlər üzərində sıra ilə çevrilmiş butalar olan xalça yalnız Gəncə xalçasına məxsusdur. Gəncənin "Xan tirmə" adlı xalçası ilə yanaşı, Bakının XX əsrin əvvəllərinə aid "Xilə", Qarabağın " Şabalıd buta", Şirvanın "Sor-sor", Təbrizin "Sənnə" xalçaları da məhşurdur [12, 176-177]. İlk dəfə VII əsr yazılı abidəmiz olan Kitabi-Dədə Qorqud dastanında rast gəlinən butanın mənasına gəlincə, xalça tətqiqatçısı V.Muradov buta - naxışların mənasını açıqlayarkən, onun üçkünc formalı dua işarəsi olmasını, bədnəzərdən və bəlalardan qoruduğunu bildirir [11, 77].

Azərbaycanın görkəmli xalçaçı rəssam L.Kərimov butanın Gəncədə və digər bölgələrimizdə istifadəsini onların bir vaxtlar atəşpərəstlik mərkəzi olması ilə əlaqələndirmişdir [7, 88]. Ümumiyyətlə butanın mənşəyi, onun etimologiya və semantikası ilə əlaqədar müxtəlif fikirlər mövcuddur. Buta bəzən türk xalqlarında müqəddəs sayılan tovuz quşu ilə eyniləşdirilir və sonralar onun buta formasını aldığı göstərilir. Professor R.Əfəndi yazır: "Əsrlər keçdikcə tovuz quşu rəsmləri öz keçmiş mənasını itirmiş və nəhayət sadələşərək Şərq aləmində ən geniş yayılmış "buta" ornamentinə çevrilmişdir" [2, 29]. Tovuzquşu təsvirli xalıların ən qədimi XV yüzilliyə aid edilən və hazırda Stokholm Tarix Muzeyində saxlanılan Qazax xalçasıdır [3, 127].

Azərbaycanda toxuculuq nümunələri üzərində daha çox rastlanan təsvirlərdən biri də quş təsvirləridir. L.Kərimov müxtəlif xalça və xalça məmulatları üzərində 53 növ quş təsviri qeydə almışdır [8, 63]. Hazırda tətbiqi-dekorativ sənətlərdə bəzək kimi təsvir olunan quşlar keçmişdə simvolik məna kəsb etmişdir. Araşdırmalar göstərir ki, əgər qədimdə bir sıra quş obrazları ulu dini ayin və mifik təsəvvürlərlə əlaqədar olaraq tətbiq olunurdusa, orta yüzilliklərdə onlar daha çox xalq nağılları, rəvayətləri, təmsilləri ilə bir sözlə, folklorla bağlı olmuşdur. Qədim dövrlərdə ulu, dini, himayədar, ana ilahə kimi mifik təsəvvürlərlə əlaqədar tətbiq olunan quş təsvirləri, sonralar dekorativ məzmun üslubunda təsvir olunurlar. Gəncə xalçaçılıq məktəbinə aid olan və Milli Azərbaycan Tarixi Muzeyində qorunan (EF inv. 4006) kiçik çeşni üzərində, zəminin alt və üst hissələrində, sağ və sol yanlarında quş təsvirləri vardır [11, 210].

Milli Azərbaycan Tarixi Muzeyinin Etnoqrafiya Fondunda qorunan, Qazax xalça məktəbinə xas xalçalardan birinin (7186 inventar nömrəli) mərkəzi bütünlüklə müxtəlif quşlarla bəzədilmişdir. Burada əfsanəvi ikibaşlı quşlar, iri və xırda quşlar təsvir olunmuşdur. Bu xalça üzərindəki təsvirlərə görə bəzən "Ağaclı" da adlanır. Xalçanın mərkəzində Qazax xalçaları üçün səciyyəvi olan romb fiquru toxunmuşdur. Simmetrik şəkildə ox başlı fiqurun içərisində ağac təsvirləri var. Xalçanın sağ və sol üst künclərində isə əfsanəvi ikibaşlı quş təsvirləri var. Eyni zamanda xalçanın kompozisiyası bir-birinə əks istiqamətdə dayanmış iki at təsviri ilə tamamlanır.

Qazaxın məşhur xalçalarından biri olan "Şıxlı" xalçası üzərində quşlar simvolik mənada toxunmuşdur. Belə ki, bu xalçada şumerlərdən başlayaraq dünya xalqlarının bir çoxunun mifologiyasında geniş yer tutan, həmçinin, türk xalqlarının dünyagörüşü üçün xarakterik olan ikibaşlı qartal əks olunmuşdur. İlk baxışdan ağaca bənzəsə də, əslində şaman fiqurunun bir əlində ruhunu göyə daşımaq üçün quş, digər əlində stilizə olunmuş

çərxi fələk elementi tutduğu aydın görünür. İkibaşlı qartal, yaxud, toğrul alıcı quş kimi türk xalqları arasında sıx istifadə olunan element olmuşdur. İkibaşlı quşlar xalçalara məhz mifoloji dünyagörüşünün təcəssümü kimi toxunmuşdur. Belə ki, Sibirdə, Altayda çadırların yaxınlığında bir sırıq olardı və bu sırığın üzərində ağacdan yonulmuş bir quş yapışdırılardı və adətən, ikibaşlı qartal şəklində olardı. Bununla yanaşı, bəzən xalçalarda stilizə olunmuş qartal təsvirinə də rast gəlinir. Buna baxmayaraq, türk xalqlarında ikibaşlı təsvir edilən və simvolik məna ifadə edən quşun məhz qartal olduğunu anlamına gəlinir. Bu xalçaların gölləri üçün stilizə olunmuş və ağac formasını xatırladan qədim türk əlifbasının "iç-çi" hərfinə bənzər təsvirlər xarakterikdir [4, 14].

Qeyd edək ki, Gəncə toxucuları da xalçaları, hətta xalça toxumaq üçün istifadə olunan alətləri də "həyat ağacı", "iç-çi" kimi naxışlarla bəzəyirdilər. "iç" və ya "iççi" elementi kökü əski türk xalqlarının bir çoxunda mövcud olmuş bir inancdan günümüzə gələn, qoruyucu ruh mənası daşıyan qədim türk xalqlarına məxsus elementdir. Elementin türk xalqları mifologiyasında xeyirxah, göz və bəd nəzərlərdən qoruyucu, həmçinin uğur gətirən bir ruhu simvolizə etdiyi aydın olur.

Dahi Azərbaycan şairi N.Gəncəvinin "İsgəndərnamə" poemasında Nüşabənin Bərdədəki sarayını təsvir edərkən bir neçə dəfə ipək parçalar üzərinə salınmış tovuzquşu rəsmlərindən bəhs etməsi quş təsvirinin orta əsrlər dövründə geniş istifadəsini təsdiqləyir. Şair həm də bu rəsmlərin sırf türk xalqlarına xas olduğunu da nəzərə çatdırmışdır [2, 30]. Bundan başqa ölkə ərazisində aparılan arxeoloji qazıntılar zamanı quş təsvirli keramika nümunələri də aşkar edilmişdir ki, qədim Gəncədən ( Beyləqan, Bəndovan, Qəbələ) tapılmış və Milli Azərbaycan Tarixi Muzeyinin Arxeologiya Fondunda qorunan quş təsvirli şirəli qabları buna misaldır [6, 217].

Xalça və xalça məmulatları üzərinə toxunmuş və heyvandarlıqla bağlı olan təsvirlərdən biri də dəvə təsvirləridir. Dəvələr iki cür təsvir olunmuşdur: biri maldarlıqla müştərək qurulmuş dəvəçilik təsərrüfatını, digəri isə çarvadar dəvəçiliyini ifadə etmişdir [5, 111]. Milli Azərbaycan Tarixi Muzeyində qorunan 6858 inventar nömrəli Qazax xalçası üzərində həm bir, həmdə iki hörgüclü dəvə təsvir olunmuşdur. Qeyd etmək lazımdır ki, dəvəçilik Azərbaycanda hazırda tənəzzülə uğrasa da, keçmişdə bu təsərrüfat növü kifayət qədər geniş ərazidə yayılmış və müəyyən dövrlərdə əhalinin təsərrüfat həyatında mühüm bir yer tutmuşdur. Dəvəçiliklə bağlı xalq arasında müəyyən inamlar formalaşmağa başlamışdır. Hətta dəvə tükünün guya nitq qüsurlarına, psixi və ruhi şikəstliklərə malik olan xəstələrin müalicəsində effektli təsiri olduğuna inanılmışdır [12, 82].

Azərbaycan dekorativ tətbiqi sənətində ən çox diqqətçəkən və geniş istifadə olunan naxışlar sırasında adı çəkilənlərdən biri də rombdur. Elmi ədəbiyyatda bu həndəsi fiqurla əlaqədar fikrə əsasən rombun qadın-ana inancı ilə əlaqədar olmasının doğruluğunu düşünmək mümkündür. Lakin sonradan romb stilizə olunaraq göz formasına düşmüşdür. Bütün digər türk xalqlarında, eləcə də Azərbaycan xalqının da qədimdən bugünədək gəlib çıxmış bədnəzərə, yaxud, el arasında deyildiyi kimi, "pis göz"ə inam olması inancı özünü toxuculuq nümunələri, əsasəndə xalçalar üzərində daha aydın göstərir. Xalçaların bir çoxunda bədnəzərdən qorunmaq üçün konkret olaraq göz toxunmuşdur. İlk baxışdan bəzi toxuculuq nümunələri üzərində bu naxış gözə bənzəməsə də, digərlərində insan gözünə bənzər motivi görmək mümkündür. Qazax xalçaçılıq məktəbinə aid olan "Qaraqoyunlu" xalçası üzərində də bu naxış vardır [12, 112].

Qədim inanclara aid olan, toxuculuq məmulatları və xalçalar üzərində tez- tez rast gəlinən bərabər tərəfli xaç, yaxud, "üstəgəl", "artar" kimi qeyd olunan elementin də tarixi çox qədimdir və bu elementdən Azərbaycanda hələ eramızdan əvvəl istər inşaat sahəsində, istərsə də sənətkarlıq sahəsində (tunc və saxsı məlumatlar üzərində) istifadə olunmuşdur. Gəncəçay və Borsunlu abidələrində arxeoloji qazıntılar zamanı üzərində xaç, svastika işarələri həkk olunmuş bir çox əşyalar tapılmışdır. Bundan başqa Milli Azərbaycan Tarixi Muzeyinin

Etnoqrafiya Fondunda qorunan Qazax (EF inv. 6244) xalçaçılıq məktəbinə aid dəvə və at çulları üzərində xalçalar toxunmuşdur [12, 138].

Türk xalqları arasında mövcud olmuş inanc sistemlərinin içərisində təbiət kultu və onun ayrılmaz hissəsi olan ağac kultu mühüm yer tutmuş, eləcə də xalça və xalça məmulatları üzərində istifadə olunmuşdur. Türk mifoloji dünyagörüşündə ağac motivi birbaşa yaradılış dastanlarında yer tutan bir motivdir. M.Kaşqarinin oğuzlardan danışan zaman verdiyi bilgiyə əsasən, onların yüksək bir dağla yanaşı, həmdə "gözlərinə ulu görünən" böyük bir ağaca "Tenqri" deməlırindən başlamış, Dərbənd yaxınlığında yaşayan yerli camaatın - qumuqların toxunulmaz, müqəddəs saydıqları ağaca Tenqrixan adını verməlırinə qədər çox sayda bilgilər Türklərin gözündə ulu ağacın Tanrının ilahi vəsfini daşıdığını göstərir [9, 17].

Türk xalqlarının dekorativ-tətbiqi sənət nümunələri üzərində müxtəlif ağaclar həyat ağacı kimi təsvir olunur. Ağlayan söyüd məhəbbət, palıd güc -qüvvət, nar ağacı müvəffəqiyyət və nəsil artımı rəmzi sayılırdı [10, 88].

Ağac motivi demək olar ki, dünya xalqlarının bir çoxuna məxsus maddi mədəniyyət abidələrində öz əksini tapmış və tədricən həyat ağacı adını almışdır ki, bu da təsadüfi deyildir. Milli Azərbaycan Tarixi Muzeyində qorunan Qazax xalçalarından birinin (MATM EF inv. 6858) tam mərkəz hissəsində simmetrik şəkildə həyat ağacı təsvir edilmişdir. Bununla yanaşı ağacın başqa formaları xalçanın mərkəz hissəsinin kənarlarında da toxunmuşdur. İlk baxışdan sərv ağacını xatırladan bu ağacın təsvirinə İznik muzeyində saxlanılan məzar daşlarında da rast gəlmək olar. XIX əsrə aid digər Qazax xalçası üzərində gölün mərkəzində və kənarlarında ağac motivi görünür (inv. 7536). Mərkəz hissədəki ağac daha çox həmişəyaşıl şam ağacını, kənarlardakı iki əks istiqamətdə toxunmuş ağaclar isə sərv ağacını xatırladır. Belə nəticəyə gəlmək olar ki, xalçanı toxuyan şəxs uzun ömürlülüyü və gözəlliyi tərənnüm etmişdir. Maraqlıdır ki, qədim zamanlarda insanların ağacların fotosintez prosesi sayəsində havanı oksigenlə zənginləşdirməsi haqqında biliklərə sahib olmamalarına baxmayaraq, ağacları həyat verən bir bitki kimi simvolizə etmişlər. 1086 inventar nömrəli xalça həyat ağacının daha qabarıq əks olunduğu nümunələrdəndir. Xalçanın mərkəzi bütünlüklə həyat ağacı təsvirləri ilə doldurulub. 6858 inventar nömrəli xalça üzərində isə həyat ağacı çox maraqlı şəkildə təsvir edilib. Burada xərçəng fiqurunun başlanğıcı və sonunda həyat ağacı toxunmuşdur. Mərkəzin alt və üst hissələrində isə başqa növ ağaclar təsvir olunmuşdur. Maraqlı həyat ağacı təsvirlərindən biri də 4016 inventar nömrəli zilidir. Bu zili üzərində həyat ağacı iki qulplu saxsı qabda kökləri ilə birlikdə təsvir edilmişdir [12, 189].

*Nəticə.* Azərbaycanın görkəmli xalçaşünas alim və tədqiqatçıları uzun illər ərzində xalça və xalça məmulatı nümunələrini tədqiq etmiş, hətta xalqımızın etnik tarixinin bir çox gizli məqamlarına aydınlıq gətirmişlər. Aparılan araşdırmalar xalqın bu sahələrdə yaratdığı milli-mənəvi və maddi dəyərlərin zənginliyini bir daha əyani şəkildə təsdiqləyir. Tədqiqatlar göstərir ki, Azərbaycanın bir çox bölgələrinin, o cümlədən qədim mədəniyyət mərkəzlərindən olan Gəncə-Qazax bölgəsi əhalisinin məişətində də xalça və xalça məmulatları əsas yer tutmuş, bu ərazidə yaşayan insanların düşüncə və hisslərinin əsas müstəvisi kimi çıxış etmişdir. Onların yaradıcı əməyinin, nəsillərdən-nəsillərə ötürülən toxuculuq vərdişlərinin nəticəsi olaraq meydana gələn xalça və xalça məmulatları və onların üzərindəki naxışlar minilliklər boyu hafizələrdə yaşayaraq müasir dövrümüzə qədər gəlib çatmışdır.

## ƏDƏBİYYAT

1. Bünyadov Z. M. Azərbaycan tarixi. Bakı, Çıraq, 2007. Səh. 57-58
2. Əfəndi S. R. Azərbaycan dekorativ-tətbiqi sənətləri (orta əsrlər). Bakı, İşıq, 1976. Səh. 30
3. Əfəndi R.S. Azərbaycanın maddi mədəniyyət nümunələri dünya muzeylərində. Bakı, 1980.
4. Gəncə-Qazax xalçaları. Kataloq. Bakı "Təhsil", 2022, 90 səh.

5. Xəlilov X.D. Azərbaycanda dəvəçilik: təsərrüfatda və məişətdə. Azərbaycan xalçaları. cild 3, N 6, 2013. 156 səh.
6. İsmayılova A. Səlcuq dövrü quş təsvirli şirli qabların bədii əl işlənmə texnikası. / IV Uluslararsı Türk el dokumları ve gelenekli sanatları kongresi. Sanat etkinlikleri. Bakı , 02-05.10.2012.
7. Керимов Л. Азербайджанский ковер. Т. II. Баку, Гянджлик, 1983. Səh-88
8. Kərimov L. Azərbaycan xəlçəsi. Leninqrad, 1961. 94 səh.
9. Məmmədov C. B. Türk mifoloji sözlüyü. Bakı, 2003. Səh. 17
10. Muradov V. A. Azərbaycan xalçaları. İrəvan qrupu. Bakı, Elm, 2011.
11. Muradov V.A. Bakı xalçaları: Azərbaycan xalçalarında tətbiq edilən işarələr və onların anlamları. // Azərbaycan xalçaları. cild 3, N 6, 2013. Səh. 77.
12. Nəsirova S. Azərbaycan toxuculuq nümunələrindəki naxışların semantikası (Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyası əsasında tarixi-etnoqrafik tədqiqat). "Bakı Mətbəəsi" ASC. Bakı: 2021, 294 səh.
13. http://azerbaijani-studies.blogspot.com/2017/01/xalca-naxslarnda-yasayan-ulu-tariximiz.html

УДК 94(479.24).

*д.ф. по истории., доц. Самира Алиага кызы Гасымова*
*АГАУ Общественных дисциплин*
*Гянджинского отделения НАНА*

## УЗОРЫ, ПРИНАДЛЕЖАЩИЕ ГЯНДЖИНСКО-ГАЗАХСКОЙ ШКОЛЕ КОВРОТКАЧЕСТВО КАК ЭТНОГРАФИЧЕСКИЙ ИСТОЧНИК

*РЕЗЮМЕ*

*Ключевые слова:* Гянджа-Газахская школа ковроткачество, ковры и ковровые изделия, узорное искусство, узоры как этнографический источник, материальная и духовная культура

Искусство ковроткачества занимает особое место среди национальных и нравственных ценностей азербайджанского народа. Этот вид декоративного искусства, пройдя через тяжелейшие испытания истории, жил вместе с желаниями и делами нашего народа и дожил до нашего времени. На протяжении тысячелетий каждый узор, отраженный людьми на коврах и ковровых изделиях, важен как историко-этнографический источник с точки зрения изучения этногенеза, религиозных верований, хозяйственного и семейного быта, обычаев, этнокультурных и экономических связей азербайджанского народа с другими тюркоязычными народами. В этом направлении наши видные ковроведы провели исследования и внесли важный вклад в изучение этих узоров, являющихся следами каких-то исторических событий, традиций и верований, в раскрытие их сущности и тайн. В представленной статье также говорится о значении узоров, вытканных на коврах, принадлежащих к Гянджинско-Газахской группе, которая является одной из семи основных школ ковроткачества Азербайджана, как этнографического источника.

UDC 94(479.24).

*PhD in history, associate prof. Samira Aliaga Gasimova*
*ASAU, Department of Social Sciences*
*Ganja Branch of ANAS*

# PATTERNS BELONGING TO THE GANJA – GAZAKH SCHOOL OF CARPET WEAVING AS AN ETHNOGRAPHIC SOURCE

*SUMMARY*

*Key words:* Ganja-Gazakh school of carpet weaving, carpets and carpet products, pattern art, patterns as an ethnographic source, material and spiritual culture

The art of carpet weaving has a special place among the national and moral values of the Azerbaijani people. This type of decorative art, having passed through the most difficult tests of history, has lived together with the wishes and deeds of our people and has survived until our time. For thousands of years, each pattern reflected by people on carpets and carpet products is important as a historical-ethnographic source in terms of studying the ethnogenesis, religious beliefs, economic and family life, customs, ethnic-cultural and economic relations of the Azerbaijani people with other Turkic-speaking peoples. In this direction, our prominent carpet scientists have conducted research and made important contributions to the study of these patterns, which are traces of some historical event, tradition, and belief, and uncover their essence and secrets. The presented article also talks about the importance of patterns woven on carpets belonging to the Ganja-Gazakh group, which is one of the seven main carpet weaving schools of Azerbaijan, as an ethnographic source.

***Daxil oldu: 05.03.2025-ci il***